**UOT 792.03**
**https://doi.org/10.59849/2311-8482.2024.3.178**

**SEVDA MÜTƏLLİMOVA***

# CAHANGİR CAHANGİROVUN MAHNI YARADICILIĞI

*Məqalədə C.Cahangirovun mahnı yaradıcılığı öz əksini tapmışdır. C.Cahangirovbütün yaradıcılığı boyu mahnı janrına müraciət etmiş və mövzu zənginliyi ilə seçilən bənzərsiz əsərlər yaratmışdır. C.Cahangirovun mahnıları vətənə, doğma şəhərə, xalqa olan məhəbbətə, bu xalqın böyük işləri və qəhrəmanlıqlarına həsr olunmuşdur.Məqalədə bu mahnılar haqqında ətraflı məlumat verilmişdir.*

**Açar sözlər:** *xalq mahnısı, muğam, folklor*

## Giriş

Professional Azərbaycan musiqisinin banisi Üzeyir Hacıbəylinin vəsiyyət və ənənələrinə sadiq qalan, respublikanın istedadlı bəstəkarlar dəstəsinin nümayəndələrindən biri kimi Cahangir Cahangirov Azərbaycan musiqi folkloruna və klassik musiqimizin ənənələrinə arxalanaraq, öz yaradıcılığında doğma musiqi mədəniyyətimizin nailiyyətlərini təcəssüm etdirir. C.Cahangirov özünəməxsus parlaq yaradıcılığı ilə dövrünün musiqi mədəniyyəti tarixində önəmli rol oynamışdır.[1]

Öz musiqi təfəkkürünü xalq musiqisinin janr və formalarından ayırmayan bəstəkar muğamlarımızın qanunauyğunluqlarından geniş istifadə edərək Azərbaycan musiqisində intonasiya cəhətdən yeni xor növü yaratmışdır. “Azad” operasının, dramatik pyeslərə yazılmış musiqinin bir sıra instrumental əsərlərin müəllifi olan C.Cahangirov xor musiqisinə, vokal simfonik musiqiyə və kütləvi mahnı janrına daha çox meyl edir (2).

## Əsas təhlil

Onun yaradıcılığının mühüm və ən əsas hissəsini məhz bu janrlar təşkil edir. Mübaliğəsiz demək olar ki, müəllifin yaradıcılığı Azərbaycan xor musiqisinin və kütləvi mahnıların inkişafında böyük rol oynamışdır. C.Cahangirovun bu janrlarda yaratdığı əsərlər geniş dinləyici kütləsinin dərin məhəbbətini qazanmışdır.

C.Cahangirovun yaradıcılığında dinləyicinin rəğbətini qazanan xüsusiyyətlər çoxdur. Lakin ona böyük şöhrət qazandıran ən mühüm cəhət yaradıcılığındakı parlaq melodik milli folklordan bacarıqla istifadə etmək, böyük nikbinlik və hisslərin istifadəsindəki təbiilik, eyni zamanda, bütün bu cəhətləri müasir həyatın tələblərinə uyğun olaraq ifadə edə bilmək bacarığıdır (3).

C.Cahangirovun yaradıcılıq yolu – həyatın tələblərindən doğan ən aktual, kəskin süjet, ideya və problemlər şərh etmək, janr və forma sahəsində gərgin və daimi axtarışlar yoludur. Məhz bu axtarışlar bəstəkarı məlum sabit klassik janrların müxtəlif variantlarına müraciət etməyə və arabir onlara yeni ünsürlər əlavə etməyə məcbur edir.

C.Cahangirovun əsərlərinin musiqi dili olduqca fərqlidir. Bəstəkarın üslubunun folklorlaşmasında şifahi xalq yaradıcılığının iki sahəsi – mahnı və muğam sənəti əsas amil olmuşdur. Təsadüfi deyil ki, C.Cahangirovun bəstəkarlıq fəaliyyətinin diqqəti cəlb edən sahələrindən biri olan mahnı yaradıcılığı, xalq musiqi intonasiyaları üzərində köklənmiş və müəllifin fərdi üslubu ilə folklor ünsürlərinin birləşməsindən yaranmışdır.

Bəstəkarın ilk yaradıcılıq sınaqları mahnılar və xor musiqisi ilə bağlıdır. Xor üçün bir sıra musiqi parçaları yazması, xalq melodiyalarını işləməsi və kütləvi mahnılar yazması, C.Cahangirovun bəstəkar adı almasına zəmin olmuş və eyni zamanda onun yaradıcılığında əsas janrların mövcud olmasının başlanğıcını qoymuşdur.

C.Cahangirov bütün yaradıcılığı boyu mahnı janrına müraciət etmiş və mövzu zənginliyi ilə seçilən bənzərsiz əsərlər yaratmışdır. Olduqca səmimi ifadə olunmuş ən müxtəlif hiss və əhvali-ruhiyyənin incə xüsusiyyətləri bu mahnılarda öz əksini tapmışdır.

Bəstəkarın mahnılarının mövzu və obraz dairəsi rəngarəngliyi ilə seçilir. Onların arasında vətənə, doğma şəhərə, xalqa sevgi, məhəbbət hisslərini, zəhmətkeş insanların əməyini vəsf edən mahnılara rast gəlmək olar. C.Cahangirovun mahnılarının qəhrəmanları müasirlərimizdir (1).

C.Cahangirovun yaradıcılığında satirik və bir qrup uşaq mahnıları nümunələri də vardır. Lakin, bəstəkar yaradıcılığında əsasən lirik mahnıya geniş yer verir. “Nazənin”, “Gözlərin”, “Bahar nəğməsi”,

"Çİçəklər", "Xəzər", "Dan ulduzu bir də mən", "Kərəm kişi" bu qəbildən olan mahnılardır.

Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakultəsində təhsil alan C.Cahangirov və bir qrup Azərbaycan musiqiçiləri 1945 – ci ildə Cənubi Azərbaycana, musiqi kollektivlərinin – xor və instrumental ansamblların təşkili üçün yaradıcılıq ezamiyyətinə yola salınır. Bu səfərdə olarkən C.Cahangirov Cənubi Azərbaycan şairləri Mədinə Gülgün və Əli Tudənin şeirlərinə "Təbrizim" və "Azərbaycan demokratik himni" mahnılarını bəstələyir.

C.Cahangirov hər bir mahnıda nə isə fərdi ştrixlər, melodik və harmonik guşələr tapması və bunların mahnıya xüsusi, yalnız ona məxsus kolorit və ahəng verməsi çox səciyyəvidir.

Məsələn, "Dan ulduzu bir də mən" mahnısında Bayatı – Şiraz məqamının intonasiyaları ilə təravətlənmiş, tədricən inkişaf edən melodiyanın ifadəliliyi, şeirin lirikası ilə aydın, aylı gecə mənzərəsi ilə üzvi vəhdət təşkil edir.

C.Cahangirovun "Xəzər" mahnısı da səmimi arzularla doludur. Bu mahnıda doğma şəhərə, qocaman Xəzərə məhəbbət ifadə olunur. Bayatı – Şiraz məqam ahənginin mahnıya həzin çalar verməsinə baxmayaraq, o major sonluğu sayəsində şən – şux pərdə ilə səslənir.

Bəstəkarın xalq rəqsi melodiyalarına əsaslanan "Gəl, gözəlim" mahnısı da öz ölkəsinin gözəlliklərinə yazılmış şən – şux bir himn kimi səslənir.

C.Cahangirovun mahnılarında rəqs təranələri çox güclüdür. Məsələn, həmin rəqs təranələri "Nazənin" lirik mahnısının melodiyasına böyük plastiklik, ehtiraslı çırpıntı və həsrət dolu incə bir oyanış verir.

Poetik məhəbbət bəyan edən "Gözlərin" adlı başqa bir lirik mahnıda vals təranələri nəzərə çarpır. C.Cahangirovun yaradıcılığında vals janrına tez – tez təsadüf edilir. Bunların arasında "Dan ulduzu bir də mən", "Nazənin" ,"Xəzər mahnıları", "Gül camalın" qəzəli vardır. Maraqlıdır ki, vals təranələri yalnız lirik mahnılarda deyil, habelə "Azərbaycan" adlı mahnıda da aşkara çıxır. Bu mahnıda Vətən, əmək, gözəl həyat mövzusu açılıb göstərilir.

Əksər hallarda Cahangirovun mahnılarında vals, əsasən, melodikaya spesifik məqam guşələri daxil etmək hesabına səciyyəvi milli kolorit kəsb edir.

C.Cahangirovun mahnı yaradıcılığında milli xalq musiqisinin əsasları çox mühüm rol oynayır. Həm də bu əsaslar hər hansı mahnının aid olduğu janrın səciyyəvi xüsusiyyətləri ilə əlaqədar olaraq hər dəfə mahnılarda yeni şəkildə meydana çıxır. Məsələn, yaradıcı əməyin sevincini tərənnüm edən "Mərdlik nəğməsi" mahnısında bəstəkar "Qəhrəmani" və "Cəngi" aşıq havalarına müraciət edir (3).

"Məhsul" adlı əmək mahnısında bulaq kimi çağlayan həyatın nəbzi, coşğun rəqs musiqisinin və məqamla harmoniyanın bir – birini əvəz etməsi vasitəsilə verilmişdir.

Uşaq mahnı janrına məhəbbət bir çox Azərbaycan bəstəkarları kimi C.Cahangirovun yaradıcılığı üçün səciyyəvidir. Bəstəkarın iki uşaq mahnıları məcmuəsi var. Bu kitablardan birində müxtəlif şairlərin mahnı və şeirləri: "Pioner yürüşü" (Ə.Əlibəyli), "Dəniz", "Mənim köhlənim", "Tonqal başında" (A.Aslanov), "Mahnı və rəqs" (M.Seyidzadə) – o biri kitabda isə H.Abbaszadənin sözlərinə yazılmış 6 mahnı: "Qalstuklu qız", "Düşərgə mahnısı", "Gənc səyyahlar mahnısı", "Vətən qızları", "Çiçəklər", "Bahar nəğməsi" – toplanmışdır. Mahnılarda özünün şən – şux xarakteri ilə sirayətedici olan səmimi təbəssüm, gənclik duyğusu başlıca cəhətlərdir.

C.Cahangirov yaradıcılığında xalq mahnılarının xor üçün işləmələri də diqqətəlayiq yer tutur. "Gözəlim sənsən", "Gül açdı, bahar oldu", "Nargilə", "Aman kəklik", "Lənkəran mahnısı", "Yar neylədim sənə?" xalq mahnısı xor kollektivlərinin repertuarını zənginləşdirmişdir.

C.Cahangirovun musiqisi genişdinləyici kütləsinə ünvanlanmışdır. O, lirik təbiətli bəstəkardır. Epik, dramatik, fəlsəfi düşüncələr də Cahangirovun təfsirində lirik boyalardır. Lirik rəvayətlilik Cahangirov üslubunun əsas cəhətlərindəndir.

**Nəticə**

Xalq incəsənəti prinsiplərinin orqanik tətbiqindən gələn parlaq melodizm, lirik obrazların təsirliliyi, mövzu zənginliyi, müxtəlif intonasiya və harmonik ifadə üslubu C.Cahangirovun mahnı sahəsindəki yaradıcılığına böyük şöhrət qazandırmışdır.

Azərbaycan musiqi mədəniyyətimizin inkişafındakı xidmətlərinə görə C.Cahangirova 1959 – cu ildə Azərbaycan SSRİ əməkdar incəsənət xadimi, 1963 – cü ilin mayında isə Respublikanın Xalq artisti adı verilmişdir.

## ƏDƏBİYYAT

1. Abdullayeva Z. Azərbaycan musiqi ədəbiyyatı. Bakı:Adiloğlu, 2009.
2. Qasımova S., Bağırov N. Azərbaycan sovet musiqi ədəbiyyatı. Bakı:Maarif, 1984.
3. Mehmandarova L. C.Cahangirov. Bakı: Azərbaycan dövlət nəşriyyatı, 1967.

***AMK - nın "Musiqinin tarixi və nəzəriyyəsi"**
**kafedrasının baş müəllimi,**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru***

**Sevda Mutallimova**

## JAHANGIR JAHANGIROV'S SONG CREATIVITY

The article reflects the song creativity of J. Jahangirov. Throughout his entire creative work, J. Jahangirov turned to the song genre and created unique works distinguished by their richness of subject matter. J. Jahangirov's songs are dedicated to the love for the homeland, his native city, the people, the great deeds and heroism of this people. The article provides detailed information about these songs.

**Keywords:** *folk song, mugham, folklore*

**Севда Муталимова**

## СОЗДАНИЕ ПЕСНИ ДЖАХАНГИРА ДЖАХАНГИРОВА

В статье отражено песенное творчество Дж. Джахангирова. Ч. Джахангиров на протяжении всей своей деятельности использовал песенный жанр и создал уникальные произведения, отличающиеся богатством тематики. Песни Дж. Джахангирова посвящены любви к Родине, родному городу, народу, великим подвигам и подвигам этого народа. Подробная информация об этих песнях представлена в статье.

**Ключевые слова:** *народная песня, мугам, фольклор.*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 28.10.2024**
**Son daxilolma tarixi:18.11.2024**